# DOQQUZUNCU SİNİFDƏ KİMYA KURSUNUN TƏDRİSİ PROSESİNDƏ ŞAGİRDLƏRDƏ EKSPERİMENTAL BİLİK, BACARIQ VƏ VƏRDİŞLƏRİN FORMALAŞMASINDA İNTERAKTİV TƏLİM TEXNOLOGİYALARININ ROLU

**A.C.Quliyev, A.M.Ağazadə**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Orta Ümumtəhsil məktəblərində kimyanın tədrisi prosesində aparılan kimya eksperimenti müəllim-şagird münasibətində müəllimin yaradıcı fəaliyyətidir. Bu fəaliyyət şagirdlərin dərketmə fəallıqlarını yüksəldir və nəticədə onların müəyyən bilik, bacarıq və vərdişlər qazanmalarına şərait yaratmış olur. Yalnız bu yolla şagirdlər kimyəvi hadisələr və proseslərin mahiyyətini dərindən anlamaq imkanına malik ola bilərlər. Şagirdlər kimya eksperimentinin müxtəlif növləri üzrə aparılan təcrübələrdə müşahidə olunan hadisələri, kimyəvi proseslərin ümumi qanunauygunluqlarını ideyalar və nəzəriyyələr əsasında izah etməyi bacarmaqla onlarda kimya fənninə maraq yaranır və bununla da dərketmə fəallıqları yüksəlmiş olur.

Orta məktəbin kimya kursunda şagirdlərdə eksperimental bilik, bacarıq və vərdişlərin formalaşması nümayiş təcrübələrinin aparılması ilə başlayır, laboratoriya və praktik işlərin və həmçinin eksperimental məsələlərin həlli ilə davam edir.

Kimya dərslərində şagirdlərdə bacarıq və vərdişlər fənnə dair bilik əsasında yaranır. Bilik təlimin məzmununun nüvəsi sayılır. Təlim prosesində alınan bilik şagirdlərdə onun mahiyyətinə müxtəlif dərinlikdə nüfuz etmələri ilə xarakterizə olunur. Nizamlı təşkil olunmuş məktəb təlimi biliyin dərinliyi və genişliyini ,onun həcmini və məzmununu dəqiq təyin etməyi tələb edir. Biliyin didaktik funksiyaları kimya müəllimi qarşısında aşağıdakı vəzifələri qoyur.

*biliyi qəti müəyyən olunmuş ifadə formasından şagirdlərin dərketmə prosesinin aktivləşməsinə yönəltmək;

*biliyi şagirdin təfəkkür fəaliyyətinin məzmununa çevirmək;

*biliyi şagirdin şəxsiyyət kimi formalaşmasının vasitəsi etmək.

Kimya dərslərində tədris materialının dərindən mənimsənilməsi yalnız nəzəriyyə ilə praktikanın vəhdəti şəraitində həyata keçirilə bilər. Şagirdlərdə eksperimental bacarıq və vərdişlər laboratoriya təcrübələri və praktik işlərin aparılmasında, eksperimental məsələlərin həllində sistematik olaraq formalaşdırılmalıdır. Bu işin nailiyyəti kimya müəlliminin eksperimental bacarıq və vərdişlərin quruluşu və məzmununu, həmçinin kimya eksperimentlərinin müxtəlif növlərindən səmərəli istifadə olunmasının şəraitini bilməsindən asılıdır.

Kimyadan metodik ədəbiyyatlarda, orta məktəblərdə kimyanın tədrisi prosesində şagirdlərdə formalaşan bacarıq və vərdişlər şərti olaraq bir neçə qrupa bölünür: təşkilatçılıq; texniki; ölçmə; əqli və s.

Göstərilən bacarıq və vərdişlərin məzmunu kimya proqramı əsasında müəyyən olunur:

Təşkilatı bacarıq və vərdişlər: eksperimentin planlaşdırılması; reaktiv və avadanlıqların seçilməsi; işin icrası prosesində metod və vasitələrdən, vaxtdan səmərəli istifadə olunması; özünə nəzarətin həyata keçirilməsi; iş yerini təmiz saxlamaq; işdə müstəqil olmaq.

Texniki bacarıq və vərdişlər: reaktiv və avadanlıqla davranmaq; hazır hissələrdən qurğu hazırlamaq; kimyəvi əməliyyatları icra etmək; əməyin təhlükəsizliyinə əməl etmək.

Ölçmək bacarıq və vərdişləri: maye və qazların həcmlərini ölçmək; maddələri çəkmək; mayelərin temperaturunu və sıxlığını ölçmək; ölçmənin nəticələrini işləmək.

Əqli bacarıq və vərdişlər: eksperimentin məqsədi və vəzifələrini dəqiqləşdirmək; fərziyyə irəli sürmək; malik olduğu bilikdən istifadə etmək; müşahidə olunan hadisələr və prosesləri təsvir etmək; eksperimentin nəticələrini analiz etmək; səbəb–nəticə əlaqələrini müəyyən etmək; ümumiləşdirmə aparmaq və nəticə çıxarmaq.

Qruplar üzrə eksperimental bacarıq və vərdişlərin məzmunu kimya proqramına uyğun olaraq şagirdlərin hazırlığı və fərdi xüsusiyyətləri nəzərə alınmaqla üç səviyyə üzrə müəyyən olunur. Burada nümunə olaraq kimya eksperimentinin aparılması prosesində şagirdlərdə təşkilatçılıq bacarıq və vərdişlərinin səviyyələr üzrə formalaşmasının təxmini məzmunu verilir.

Cədvəl 1.

Şagirdlərdə təşkilatçılıq bacarıq və vərdişlərin onların hazırlığı və fərdi xüsusiyyətlərinə uyğun olan səviyyələr üzrə formalaşması

| I səviyyə | II səviyyə | III səviyyə |
|---|---|---|
| 1.Eksperimentin planının hazırlanması, reaktiv və avadanlıqların müəyyən olunması, hesabat formasının hazırlanmasının təlimat əsasında həyata keçirilməsi.<br>2. Eksperimentin verilmiş vaxtda icrası, tanış vasitələr və metodlardan istifadə olunması.<br>3.Eksperimentin nəticələrinin yazılı tərtib olunmasına qoyulan tələbləri bilməsi.<br>4. İş yerinin təmiz olmaması.<br>5.İşin aparılması prosesində müəllimin köməyinə tələbatın olması. | 1.Eksperimentin planının hazırlanması, reaktiv və avadanlıqların müəyyən olunması, hesabat formasının hazırlanması təlimatsız həyata keçirilməsi.<br>2.İşin aparılması prosesində vaxtdan, reaktivlər və metodlardan səmərəli istifadə olunması.<br>3.Sorğu ədəbiyyatlarından, şəkillər və ya sxemlərdən istifadə etməklə eksperimentin nəticəsinin yazılı hazırlanması.<br>4.İş yerinin təmiz saxlanılması.<br>5. İşin aparılmasında müəllimin köməyinə yalnız bəzi hallarda tələbatın olması. | 1. Eksperimentin müstəqil planlaşdırılması və onun nəzəri izahının verilməsi.<br>2. Reaktiv və avadanlıqların müstəqil müəyyən olunması, hesabatın formasında dəyişiklərin edilməsi.<br>3. İşin icrasında vaxta qənaət olunması, səmərəli metod və vasitələrin seçilməsi.<br>4.Sorğu və elmi ədəbiyyatlardan istifadə etməklə eksperimentin hesabatının hazırlanması.<br>5.İş yerini təmiz saxlamaq, eksperimenti müstəqil icra etmək. |

İşin icrasına görə şagirdlərə birinci səviyyə üzrə "3", ikinci səviyyə üzrə "4", üçüncü səviyyə üzrə "5" qiymət verilir.

Orta məktəbdə kimya eksperimentinin bütün növləri üzrə şagirdlərdə eksperimental bilik, bacarıq və vərdişlərin formalaşmasına şərait yaradan əsas faktor təlim metodu və vasitələrinin düzgün seçilməsidir. Respublikamızın orta ümumtəhsil məktəblərində fəaliyyət göstərən kimya müəllimlərinin iş təcrübəsi ilə tanışlıq göstərmişdir ki, hazırda təlim prosesində interaktiv təlim metodlarından istifadə olunmasına daha çox üstünlük verilir. Təcrübə göstərir ki, interaktiv təlim metodu ilə aparılan təlim prosesində müəllimlə şagird və şagirdlə şagirdlər arasında nizamlı qarşılıqlı fəaliyyət mövcud olur.

Kimya dərslərində interaktiv təlim metodlarından istifadə olunması şagirdlərin elmə marağını artırır, tədris materialının effektli mənimsənilməsinə, eksperimental bilik, bacarıq və vərdişlərin formalaşmasına şərait yaradır. İnteraktiv təlim dialoq şəraitində aparılan təlimdir. Dialoq şagird-şagird (cütlərlə iş), şagird-şagird qrupu (qrupla iş), şagird-sinif və s. təşkil olunu. Dərsin quruluşuna interaktiv təlim metodlarının daxil edilməsi dərsi daha da zənginləşdirir və maraqlı edir, şagirdlərin dərketmə fəallıqlarını yüksəldir.

Orta məktəbdə doqquzuncu sinifin kimya kursunun tədrisində aparılması planlaşdırılan laboratoriya işləri və praktik işlər şagirdlərdə əsas kimyəvi anlayışların formalaşmasına və yaradıcı təfəkkürün inkişafına şərait yaradır. Laboratoriya və praktik işlərin digər mühüm əhəmiyyəti şagirdlərdə eksperimental bilik, bacarıq və vərdişlərin formalaşmasıdır. Kimya tədrisində laboratoriya işləri və praktik işlərin hər biri müəyyən didaktik məqsədə nail olmağa istiqamətləndirilir. Məktəb kimya eksperimentinin növləri arasında qarşılıqlı əlaqə vahid bilik, sisteminin yaranmasına xidmət edir. Doqqu-zuncu sinifin kimya kursunun məzmununa daxil olan laboratoriya işləri və praktik işlərin bir-biri ilə əlaqəsini kimya müəllimi müəyyən edir və şagirdlərin praktik bilik və bacarıqlarının inkişafını ardıcıl olaraq həyata keçirir.

Burada doqquzuncu sinifin kimya kursunda "Ammonyakın alınması və xassələri" mövzusunda praktik işin aparılması prosesində şagirdlərdə eksperimental bilik, bacarıq və vərdişlərin formalaşmasına dair metodik işləmə verilir.

Praktik işin mövzusu: "Ammonyakın alınması və xassələri".

Məqsəd:

Şagird bilməli və bacarmalıdır:

*laboratoriyada təhlükəsizlik texnikası qaydalarına əməl etməyi;

*azotun -3 oksidləşmə dərəcəli birləşməsinin xassələrini müşahidə olunan hadisələrin izahına tətbiq etməyi;

*praktik işi aparmaq üçün ammonyakın alınması və xassələrinə dair nəzəri bilik və bacarığa malik olmağı;

*mövzu üzrə biliyi ümumiləşdirmək bacarığının olmasını;

*fənnə dair bacarığı inkişaf etdirməyi;

*ammonyakın qaba toplanması və suda həllolmasına aid təcrübələri aparmağı;

*ammonyakın turşularla reaksiyasını izah etməyi;

*praktik işin hesabatını cədvəl formasında hazırlamağı.

Praktik işin aparılması metodikası : praktik tədqiqat, şagirdlərin müstəqil işləri.

Fəaliyyət forması: fərdi, cütlərlə, qrupla, frontal.

Resurs: bərk halda ammonium–xlorid ($NH_4Cl$), kalsium-hidroksid ($Ca(OH)_2$), turşular ($HCl$, $H_2SO_4$), dəmir(III) xlorid ($FeCl_3$) məhlulu, fenolftalein məhlulu, sınaq şüşələri, stəkanlar, şüşə çubuqlar, metal ştativ, qazaparan boru, tıxaclar, kimya qaşığı, distillə suyu, kristallizator, pambıq,spirt lampası.

Dərsin gedişi:

Müəllim kimya laboratoriyasında reaktiv və avadanlıqların olduğunu nəzərə alaraq sinifin şagirdlərini üç qrupa bölür. Sonra praktik işin aparılmasının planı lövhədə yazılır:

1) laboratoriyada ammonyakın alınması üçün istifadə olunan maddələrin hazırlanması;

2) ammonyakın alınması üçün cihazın quraşdırılması;

3) ammonyakın alınması və qaba toplanması;

4) ammonyakın təyin olunması;

5) ammonyakın suda həll olması;

6) ammonium-hidroksiddə $OH^-$ qrupunun təyin olunması;

7) ammonyakın turşular ilə ($HCl$ və $H_2SO_4$) reaksiyasının öyrənilməsi;

8) ammonyakın oksigendə yanması;

9) praktik işin hesabatının hazırlanması.

Müəllim şagirdlərin praktik işin aparılmasına dair nəzəri və praktik hazırlığını müəyyən etmək üçün frontal müzakirə təşkil edir:

1.Ammonyaka aid olan xassələri seçin.

1) kəskin iyli qazdır

2) iysiz qazdır

3) zəhərli qazdır

4) zəhərli olmayan qazdır

5) yaşıl rəngli qazdır

6) rəngsiz qazdır

7) havadan yüngül qazdır

8) havadan ağır qazdır

9) suda yaxşı həllolan qazdır

10) suda pis həllolan qazdır

2.Ammonyak laboratoriya şəraitində hansı maddələrdən alınır?

3.Ammonyak almaq üçün sınaq şüşəsi ştativə necə bağlanmalıdır?

4.Ammonyakın alınmasını necə təyin etmək olar?

5.Ammonyakı sınaq şüşəsinə toplamaq üçün onu ştativə necə bağlamaq lazımdır ?

6.Ammonyakla dolu sınaq şüşəsini içərisində su olan qaba salsaq nə müşahidə olunar?

İşin icrasına dair qoyulan suallar şagirdlərin iştirakı ilə müzakirə olunduqdan sonra müəllim praktik işin təlimatını qruplara paylayır.

"Ammonyakın alınması və xassələri" mövzusunda praktik işin təlimatı

1. Kimya qaşığı həcmində ammonium-xlorid ($NH_4Cl$) və kalsium-hidroksid ($Ca(OH)_2$) götürüb çini həvəngə şüşə çubuqla qarışdırın. Qarışığı quru sınaq şüşəsinə tökün. Sınaq şüşəsinin dibi çıxacağına nisbətən yuxarı olmaqla ştativin pəncəsinə bağlayın. Sınaq şüşəsinin çıxacağına içərisindən qazaparan boru keçirilmiş tıxac taxın. Reaksiya nəticəsində alınan ammonyakı sınaq şüşəsinə toplamaq üçün qazaparan borunun ucunu ştativin pəncəsinə dibi yuxarı vəziyyətdə bərkidilmiş quru sınaq şüşəsinə salın. $Ca(OH)_2$ və $NH_4Cl$ qarışığı olan sınaq şüşəsini qaz lampası və ya spirt lampası alovunda əvvəlcə hər tərəfini, sonra isə qarışıq olan hissəsini qızdırın .

2. Ammonyakın alındığını müəyyən etmək üçün isladılmış fenolftaleinli kağızı ammonyak toplanan sınaq şüşəsinin çıxacağına salın. Nə müşahidə olunur? Ammonyakın alınması reaksiyasının tənliyini yazın.

3.Ammonyakla dolu olan sınaq şüşəsinin ağzını pambıqla və ya tıxacla bağlayıb içərisində su olan kristallizatora salıb ağzını açın. Nə müşahidə olunur? Suyun içərisində sınaq şüşəsinin ağzını bağlayın və çıxarın.

4. Ammonyakın suda məhlulundan 2-3 ml sınaq şüşəsinə tökün və üzərinə 2-3 damcı fenolftalein məhlulu əlavə edin. Nə müşahidə olunur? Alınan məhlulu qaynayana qədər qızdırın. Məhlulun rəngi necə dəyişir? Səbəbini izah edin.

5.Sınaq şüşəsinə 2-3 ml ammonyak məhlulu tökün və üzərinə həmin həcmdə alüminium-xlorid məhlulu ($AlCl_3$) əlavə edin.Nə müşahidə olunur? Reaksiyanın tənliyini yazın. Bu reaksiya ammonyakın hansı xassəyə malik olduğunu təsdiq edir?

6. İçərisində ammonyak qazı olan sınaq şüşəsinə qatı xlorid turşusuna salınmış şüşə çubuq daxil edin. Nə müşahidə olunur? Reaksiyanın tənliyini yazın.

7. İçərisində ammonyak qazı olan sınaq şüşəsinə qatı sulfat turşusuna batırılmış şüşə çubuq daxil edin. Nə müşahidə olunur? Reaksiyanın tənliyini yazın.

8.Ammonyak alınan sınaq şüşəsinə birləşdirilmiş qazaparan borunun ucuna yanar çöp yaxınlaşdırın. Ammonyakın yanmasını müşahidə edin. Reaksiyanın tənliyini yazın.

Müəllim praktik işin aparılmasına nəzarət edir və tələb olunduqda şagirdlərə məsləhət verir. Praktik işin icrası sona çatdıqda sinifdə işlə bağlı sualların müzakirəsini təşkil edir və ümumi nəticə çıxarılır .

1. Laboratoriyada ammonyak ammonium–xloridlə ($NH_4Cl$) və kalsium-hidroksidin ($Ca(OH)_2$) reaksiyasından alınır:

$$Ca(OH)_2 + 2NH_4Cl \xrightarrow{t} 2NH_3 + CaCl_2 + 2H_2O$$

Reaksiya nəticəsində suyun alınmasını şagirdlər müşahidə etməklə ammonyak alınan sınaq şüşəsinin dibinin çıxacağına nisbətən yuxarı vəziyyətdə bağlanmasının səbəbini öyrənirlər .Sınaq şüşəsinin çıxacağı aşağı əyilmiş vəziyyətdə olduqda su damlalarının sınaq şüşəsinin qızmış hissəsinə düşməsinin qarşısı alınır. Əks halda sınaq şüşəsi sına bilər.

2.Ammonyak havadan 2 dəfə yüngüldür. Ona görə də onu sınaq şüşəsinə toplamaq üçün quru sınaq şüşəsi ştativə çıxacağı aşağı vəziyyətdə bağlanır.

3.Ammonyakla dolu sınaq şüşəsini içərisində su olan kristallizatora saldıqda suda yaxşı həll olduğu üçün vakuum yaranır və su sınaq şüşəsinə dolur:

$$NH_3 + H_2O \rightarrow NH_4OH$$

4.Ammonyak HCl və $H_2SO_4$ turşusu ilə reaksiyaya aktiv daxil olur və nəticədə “ağ duman” halında $NH_4Cl$ və $(NH_4)_2SO_4$ kristal maddələr əmələ gəlir:

$$NH_3 + HCl \rightarrow NH_4Cl$$

$$2NH_3 + H_2SO_4 \rightarrow (NH_4)_2SO_4$$

5.Ammonium-hidroksidin tərkibində $OH^-$ qrupunun olmasını şagirdlər $AlCl_3$ məhluluna ammonium-hidroksid əlavə etməklə təsdiq edirlər.

$$AlCl_3 + 3NH_4OH \rightarrow Al(OH)_3\downarrow + 3NH_4Cl$$

Praktik işə dair şagirdlərin apardıqları təcrübələr müzakirə olunduqdan sonra müəllim işin yazılı hesabatını hazırlamağı tapşırır.

## İstifadə edilmiş ədəbiyyat:

1.M.M.Abbasov, A.H.Əliyev. Kimyanın tədrisində müasir təlim texnologiyaları. Kimya məktəbdə, № 1, Bakı, 2009.
2. A.H.Əliyev. Yeni Pedaqoji texnologiyalar və onlardan kimyanın tədrisində istifadə. Kimya məktəbdə, № 3, s.70, Bakı, 2009.
3. A.C. Quliyev,S.R.Qoçəliyeva. Yeddinci sinifin kimya kursunda «Məhlullar» mövzusunun interaktiv təlim metodlarının tətbiqi şəraitində öyrədilməsi. Kimya məktəbtə. Elmi-nəzəri və metodik məcmuə. I( 53) 2016. S.4-13
4. А.В.Кузнецов. Методические указания по организации активных и интерактивных форм проведения занятий. www.tiiel.ru/…Методическое%20 обеспечение/…/ Методичес-кие20%у.
5. Г.В.Бортникова. Использование интерактивных методов обучения на уроках химии как
средство формирования ключевых компетенций обучающихся.Fectival.1 september. ru/
arikles/576679/.
6. Э.Г.Золотников. Химический эксперимент в условиях развивающего обучения. Химя в школе, 2001. N 1.
7. Ş.Mustafa, İ.Lətifov. Kimya Ümumtəhsil məktəblərinin 9-cu sinifi üçün dərslik. Bakı. 2016
8. Ş.Mustafa, İ.Lətifov .Kimya 9-cu sinif. Müəllim üçün metodik vəsait.Bakı .2016

*А.Д. Кулиев, А.М. Агазаде*

**Роль интерактивных технологий в обучении для формирования экспериментальных знаний, умений и навыков в процессе преподавания курса химии в девятом классе**

**РЕЗЮМЕ**

В статье, на оснавании анализа дейетвующих программы и учебника по химии девятого класса средней школы, разработана методика формирования экспериментальных знаний, умений и навыков в условиях применения интерактивных техналогий обучения.

Коротко описаны экспериментальные умения и навыки, которые формируютея у учащихся в процеесе обучения химии. Расемотрены формирование умений и навыков при выпольнении учащимися 9-го класса практического занятия по теме «Получение и химические свойства аммиака».

Показаю, что для проведения опытов необходимо владеть целым рядом умений и навыков. Наиболее важными которых являются: обрашение с посудой, приборами, реакти-вами, проведения таких операций, как нагревание, собирание газов и др.

*A.D.Kuliyev, A.M.Agazade*

**In the ninth class the role of training technology in the formation of knowledge, skills and judjements in the process of teaching the chemical currikulum to the pupils**

**SUMMARY**

Based on program used article was worked out the method of formed experimental character of knowledge transfer in the ninth class. Here it was given to increase of pupils' knowledge and skills. It was given brief analyses of experiments belongs to obtained knowledge, skills of the chemistry teaching process. In the ninth class, ammonia alignment and its chemical properties are given the obtained knowledge and skills in practical lesson.

That has been determined while experimenting its aim and some training and skills has to take into consideration. It is important here: how to behave with booster pump, fever, accumlation of seperated gas and etc are important.

**Açar sözlər:** eksperiment, interaktiv, bilik, bacarıq, vərdiş

**Ключевые слова:** эксперимент, интерактив, умение, навык

**Key words:** experiment, interactive, knowledge, skills, judgements.